22 may / 2021

Ədəbiyyat QƏZETİ



*Sabir Rüstəmxanlı o azsaylı qələm sahiblərindəndir ki, yaradıcılıq diapazonunun genişliyi və çoxşaxəliyi ilə fərqlənir. O şairdir, nasirdir, ədəbiyyatşünasdır, folklorçu, tənqidçi, tərcüməçi, publisistdir. Sənətin sadaladığımız bütün sahələrində uğur qazanıb. Bu, onun istedadı ilə bağlıdır. Yaradan ona fitri istedad, tükənməz enerji, ağıl, təfəkkür, yüksəkliklərə, əlçatmazlığa can atmaq istəyi bəxş etmişdir. O, fəth etdiyi yüksəkliyi, zirvəni heç vaxt son hədd hesab etməmişdir.*

*Sabir Rüstəmxanlı Azərbaycan poeziya hüdudlarını yarıb beynəlxalq aləmə çıxan, iftixar doğuran yaradıcılığı ilə ədəbiyyatımızı layiqincə təmsil edən görkəmli şairimizdir.*

*İstər vətənimizdə, istərsə də onun hüdudları xaricində onun dostları çox, istəməyənləri yoxdur. Çünki o, paxıllıq, bədxahlıq, həsəd nə olduğunu bilmir. Yaradan ona hər adama qismət olmayan bol-bol insan sevgisi bəxş etmişdir.*

**Qəzənfər PAŞAYEV**

*Sabir Rüstəmxanlı fikir adamıdır. Örnək ziyalıdır. Təpədən-dırnağa millidir, milli ruh daşıyıcısıdır, millətçi deyil, beynəlmiçidir.*

*Bununla belə, ömrünü millətinə həsr edən ictimai xadimdir.*

*Bu əziz gündə Sabir müəllimi yubileyi münasibətilə ürəkdən təbrik edir, yeni-yeni uğurlar diləyir, əvvəlki həvəslə yazıb-yaratmasını, bundan sonra da gümrah və sağlam yaşamasını təmənna edirəm.*